# Doğma torpaqlarımıza qurub yaratmaq arzusu ilə dönürük



**Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsinin nəticəsi olaraq Azərbaycan Ordusu Qarabağı azadlığına qovuşdurdu. İndi orada genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Otuz ildən bəri ata-baba yurdlarından didərgin düşmüş məcburi köçkünlərimiz isə o torpaqlara qayıdacaqları günü səbirsizliklə gözləyirlər. Xoşbəxtəm ki, aprelin 26-da dövlət başçısının Cəbrayıl və Zəngilana növbəti səfəri zamanı onu doğma Ağalı kəndində qarşılayanlar arasında mən də vardım...**

Bu sözləri 1993-cü ildə anasının qucağında ikən yurd yerini tərk etmiş gənc yazar, Sumqayıt Regional Mədəniyyət İdarəsi nəzdindəki Poeziya evinin əməkdaşı, Prezident təqaüdçüsü Elvin Əlizadə dedi. Prezident İlham Əliyevin iştirakı ilə Zəngilan rayonunda birinci "Ağıllı kənd" pilot layihəsinin təməlqoyma mərasimində çıxış edərək ürək sözlərini söyləmiş E.Əlizadə bundan hədsiz qürur duyduğunu bildirdi və onunla bərabər bir qrup zəngilanlının orada olmasını Böyük Qayıdış prosesinin başlanması kimi dəyərləndirdi.



E.Əlizadə bildirdi ki, müzəffər Ali Baş Komandan qələbədən sonra dəfələrlə Qarabağa, o cümlədən Zəngilana səfər edib. Zəngilan Naxçıvana keçiddir, tarixi torpağımız olan Zəngəzura giriş qapısıdır. Cənab İlham Əliyev azad olunmuş ərazilərin tezliklə dirçəldilməsini prioritet vəzifə sayır. Odur ki, həmin rayonlarda abadlıq-quruculuq işləri geniş vüsət alıb, yeni iqtisadi-sosial layihələr reallaşdırılır. Bütün bunlar köçkünlərin öz yurdlarına qayıdışını sürətləndirəcək.

Prezident İlham Əliyev aprelin 26-da Zəngilanda Beynəlxalq Hava Limanının təməlini qoydu. Bu rayonun coğrafi mövqeyi və təbii imkanları Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün çox əlverişlidir. Dövlət başçısının Ağalı kəndində birinci "Ağıllı kənd" pilot layihəsinin təməlqoyma mərasimində iştirakı isə Azərbaycanın öz problemlərini özünün həll etmək iqtidarında olması, regionda möhkəm sülh yaratmaq amalı barədə dünyaya ünvanlanan bir mesaj idi.

Həmsöhbətimiz "Mənfur düşmənin işğalçılıq siyasəti nəticəsində dağıdılmış kəndlərimizin ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası üzrə bərpasına start verilməsi tarixi hadisə idi", – deyərək, təəssüratlarını bizimlə bölüşdü: "Dövlətimizin başçısının bizim Ağalı kəndində sakinlərlə görüşündə də elan etdiyi kimi, artıq



Böyük Qayıdış başlanır. Mən öz çıxışımda bildirdim ki, bu çağacan işğal ayı olan oktyabr indən belə zəngilanlılar üçün ancaq bayram ayı kimi qeyd ediləcək. Çünki Zəngilan, o cümlədən Ağalı kəndi qarı düşməndən məhz oktyabr ayında azad olunub. Xatırlatdım ki, Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə təşkil olunmuş hərbi paradda cənab İlham Əliyev tezliklə azad olunacaq torpaqlarda, Şuşada zirvələrə taxılacaq bayraqların Bakıdakı Zəfər paradında nümayiş etdiriləcəyinə söz verməşdi və Uca Yaradana şükürlər olsun ki, ötən il dekabrın 10-da bu arzumuz gerçəkləşdi. Mən öz vətənpərvərlik hisslərimi ifadə etdikdən sonra möhtərəm Prezidentimiz üzünü mərasim iştirakçılarına tutaraq dedi ki, bugünkü Azərbaycan gənclərinin Vətən sevgisi, bax, beləcə tükənməzdir. Halbuki ermənilər nəsillər dəyişdikcə azərbaycanlıların o torpaqları unudacağını düşünürdülər. Ancaq bu, onların böyük səhvi idi. Çünki Azərbaycanda qəlbində güclü Vətən sevgisi olan gənc nəsil yetişmişdir. Hətta bu torpaqları görməyən gənclər öz ata-baba yurdlarını azadlığa qovuşdurmaq arzusu ilə yaşayırdı və bu əqidə ilə silaha sarılaraq ölüm-dirim savaşına atılmışdılar. İndi artıq buna nail olunub, qalır qurub-yaratmaq. Bu istiqamətdə də ilk addımlar atılıb. Ağalı kəndi heç bir il keçmədən "Ağıllı kənd" konsepsiyası əsasında yenidən qurulacaq".

Elvin Əlizadə daha sonra bildirdi ki, sözügedən layihənin icrası, əsasən, 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələridir. Bu barədə danışdıqca gözlərim önündə sabahın "Ağıllı kənd"ində yaradılacaq təsərrüfatların kooperativ idarəetmə sistemi, müasir texnologiyalı tarla, bağ və fermalar, yaşıl ormanlar, bol sulu kəhrizlər canlanır. "Ağıllı" təsərrüfatlar kəndlərdə meyvə, tərəvəz, ət və süd məhsulları istehsalını artırmağa, emal prosesini müasir tələblərə uyğun qurmağa imkan verəcək. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm obyektləri formalaşdırılacaq. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər. Dövlətimizin başçısının elə bizim kəndimizdən xarici şirkət nümayəndələri ilə videoformatda söhbət etməsi tezliklə buraya qayıdaraq daha fərəhli günlər yaşayacağımıza inam hissimizi daha da artırdı.

Həmsöhbətimizin dediyinə görə, onun atası Nurəddin kişi işğaldan əvvəl doğma kənddə inşaat işləri ilə məşğul olub, 30-a qədər ev tikib. İndi həmin evlərdən heç bir əsər-əlamət qalmayıb, erməni vandalları daşı-daş üstə qoymayıblar. Ancaq "Ağıllı kənd" pilot layihəsinin sayəsində Ağalı kəndində 200-dək evin inşası nəzərdə tutulub. Kəndlərarası və kənddaxili yollar çəkilir. Hazırda layihənin icrası ilə əlaqədar kənddə 110-a yaxın işçi çalışır. Bərpa prosesi genişləndikcə burada təqribən 600-700-ə yaxın işçi olacaq. Mərasimdə ilk təməl qoyulunca oradan havaya sülh göyərçinlərinin pərvazlanıb uçması da rəmzi məna daşıyır. Bu, Azərbaycanın sülhpərvər siyasətə, dinc yanaşı yaşamaq prinsiplərinə və quruculuq səylərinə sadiqliyini bütün dünyaya göstərdi.

"Dünənə qədər biz bu yerlərə yalnız arzu, xəyal qanadlarında gələ bilirdik. İndi isə salınmaqda olan zəfər yolları ilə şütüyəcək maşınlarda, aprelin 26-da təməli qoyulan Zəngilan hava limanına enəcək təyyarələrdə gedəcəyik. Bu xoşbəxtliyi bizə bəxş edən müzəffər Ali Baş Komandanımız İlham Əliyevə hədsiz dərəcədə minnətdarıq" – deyə Elvin Əlizadə bildirdi.

***Təqdim etdi:***
***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***